| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Konstitusiya qanunları |
| **QƏBUL EDİLDİYİ TARİX** | 13.03.2020 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 9-VIKQD |
| **ADI** | “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 15-04-2020, Nəşr nömrəsi: 70), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 30-04-2020, Nəşr nömrəsi: 04, Maddə nömrəsi: 384) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 15.04.2020 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 010.080.000<br>010.310.010 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 11202003130009 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 16.04.2020 |

**“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq, “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun və “Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

1. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 3, maddə 115; 2004, 9, maddə 665; 2006, 3, maddə 207, 11, maddə 909; 2007, 10, maddə 928; 2009, 10, maddə 761, 12, maddə 944; 2011, 6, maddə 459, 8, maddə 749; 2014, 7, maddə 757; 2016, 4, maddə 655; 2018, 11, maddə 2184, 12 (I kitab), maddə 2480) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.8-ci maddənin birinci cümləsində “və ya yenidən baxılmasına” sözləri “, ləğv edilməsinə və ya qanunlarda dəyişikliklər edilməsinə” sözləri ilə əvəz edilsin;

1.2. 9.2-ci maddədə “göstərilmədikdə” sözü “və imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadıqda” sözləri ilə əvəz edilsin;

1.3. 9.3-cü maddədə “edilə bilər” sözləri “edilir” sözü ilə əvəz edilsin;

1.4. 10.1-ci maddənin birinci abzasında “edə bilər” sözləri “edir” sözü ilə əvəz edilsin;

1.5. 10.2-ci maddədə, 12.1-ci maddənin ikinci cümləsində, 12.2.2-ci, 13.1-ci maddələrdə, 13.2.1-ci və 13-1.5-ci maddələrin birinci cümlələrində “gün” sözü “iş günü” sözləri ilə əvəz edilsin;

1.6. 12.4-cü maddədə “apara bilər” sözləri “aparır” sözü ilə əvəz edilsin;

1.7. 12.6-cı maddənin ikinci cümləsində “gün də uzadıla bilər” sözləri “günədək uzadılır” sözləri ilə əvəz edilsin və üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

“Şikayətçinin yazılı müraciəti ilə əlavə yoxlama aparmaq lazım gəldiyi halda şikayətə baxılma müddəti 30 günədək uzadılır.”;

1.8. 13.2-ci maddənin birinci abzasında “keçirə bilər” sözləri “keçirir” sözü ilə əvəz edilsin;

1.9. 13.2.1-ci maddənin ikinci cümləsində “edə bilər” sözləri “edir” sözü ilə əvəz edilsin.

2. “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 2, maddə 69; 2016, 10, maddə 1600; 2018, 7 (I kitab), maddə 1396, 12 (I kitab), maddə 2513; 2019, 5, maddə 809) 73.6-cı maddəsinə “layihəsi” sözündən sonra “müvafiq oxunuşda baxılmasına azı 5 gün qalmış” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 mart 2020-ci il
9-VIKQD